"ŞƏHİD QARDAŞLAR"

Danışmaq yazmaqdan daha asandı. Çünki danışdığını görmürsən. Yazanda yazılar baxışlarınla danışır. Nəm kirpiklərin islatdığı baxışlarla... Dərdi yazıya köçürməyin əzabı ayrıdı. Od tutan vərəqin alovu üzünü qarsır... Yazdığın sözlər qayıdıb sənə güllə kimi dəyir. Yoxluğun kor gülləsi kimi.

V YAZI

Valideynləri sənə Allah verir, dostu isə özün seçirsən

Bir yerdə yaşanan ağrılardan qopmaq olmur. Yazacağın hər söz pillədən, hörgüdən düşən kimi düşür. Yavaş-yavaş sökülürsən.

Xatirələrin düzəni pozulur. Təklənirsən. Tək qalırsan. Yazı söz-söz içindən ayrılır. Qırılırsan...

Əslində dost özünün-özünə verə biləcəyin ən yaxşı hədiyyədir. Dost sənin özünsən, ikinci sənsən. Özünü özün qədər başa düşən sən. Dost səni təklikdən qurtarır. Çünki o, ən çətin məqamda bölüşə biləcəyin insandır. Dost bir baxışla səni duyandı...

Döyüşçünün yüksələ biləcəyi ən uca zirvəyə yüksələn şəhid dost haqqında yazanda qəhər adamı boğur. Sanki göz yaşları özüylə bərabər fikirlərini də yuyub aparır. Yazıb boşala bilmirsən. Xatirələr səni rahat buraxmır. "Bəlkə bu yuxudu", - deyirsən. Kaş ki, elə olaydı...

Çingizin hərbiçi dostu Adıyev Seyran Mirzəxan oğlunun dediklərindən:

"Şəhid qardaşım Məmmədov Çingiz İlham oğlunu 12 may 2012-ci ildən, gizir kursuna qəbul olunduğumuz vaxtdan tanıyıram. Çox yaxın münasibətimiz olub. Bu münasibət sonradan dostluğa və qardaşlığa çevrilib. Altı aylıq kursu bitirdikdən sonra gizir rütbəsini alaraq Piyadanın Döyüş Maşını komandiri vəzifəsinə yiyələndik. Müdafiə nazirinin əmri ilə Naxçıvan Qarnizonunun Ümumqoşun Ordusunun "N" saylı hərbi hissəsinə Piyadanın Döyüş Maşını komandiri təyin olunduq. Beş il eyni hərbi hissədə xidmət etdik. Bu müddət ərzində dostluq və qardaşlıq münasibətlərimiz daha da möhkəmləndi. Çingiz xidmət müddətində bacarıqlı, cəsur, həqiqətən əsl hərbiçi kimi özünü göstərdi, böyük nailiyyətlər əldə etdi. Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu Komandanı, general-polkovnik Kərəm Mustafayev tərəfindən də yüksək qiymətləndirildi.

Qardaş dost olmaya bilər - amma dost həmişə qardaşdır.

Bencamin Franklin

Çingizlə bağlı çox xatirələrim var. Şəhid qardaşımın uca məqamından danışmaq mənim üçün nə qədər çətin və ağır olsa da, şərəflidir.

Onun ailə qurmağında da mənim rolum olub. Çingizə tez-tez deyirdim ki, ailə qur. Nəhayət, Çingiz bir gün narahat formada dedi:

- Qardaş, sənin köməyinə ehtiyacım var. Təkcə sən mənə kömək edə bilərsən.

- Buyur, qardaş, nə məsələdi? - dedim.

- Bir qız sevirəm, ailəsi razı deyil. Qızı qaçırmaq istəyirəm.

- Qız hardandı, kimlərdəndir?

- Qazax rayonunun Daş Salahlı kəndindəndir. Əsgərimin bacısıdır. Qaçmağa qızın razılığı yoxdur.

- Qardaşım, sənin üçün ölümə də gedərəm, - dedim.

Həmin vaxt məzuniyyət alıb Naxçıvandan Bakıya gəldik. Çingiz mənə görə narahat idi. İstəyirdi ki, mən ailəmin yanına gedim, o tək getsin. Amma mən ondan ayrılmadım. Birlikdə Şəmkir rayonunun Yeniabad kəndinə, Çingizgilin evinə getdik. Bir gecə gün orda qaldıq. Həmin vaxt Çingizin qardaşı Cavid nişanlı idi. Valideynləri ona toy hazırlığı görürdülər. Səhər tezdən Çingizlə evdən çıxanda Çingizin anası Faya ana Çingizə Cavidin toyu üçün dəvətnamə almağı tapşırdı. Çingiz də gülərək mənə pıçıldadı ki, bunlar hələ bilmirlər ki, mən özüm üçün də dəvətnamə alacam.

Biz taksi tutub Qazaxa yola düşdük. Qazaxın Daş Salahlı kəndindən, çətin də olsa, qızı qaçırtdıq.

2014-cü ilin yanvar ayının 8-də Cavid və Çingiz qardaşlarının ikisinin bir yerdə toyu oldu. Valideynləri İlham dayı və Faya ana onlara təmtəraqlı toy etdilər. Toydan bir müddət sonra Çingiz ailəsi ilə birlikdə Naxçıvana gəldi. Naxçıvanda eyni binada qonşu olduq. Bu evlilikdən Çingizin Elgiz adlı övladı dünyaya gəldi. Çingiz ailəsinə və valideynlərinə bağlı insan idi. Hərbiçi olsa da, imkan olan kimi ailəsinin, valideynlərin yanına tələsirdi. Ailəcanlı idi. Çox mehriban idik. Dərdimiz, sirrimiz bir olardı. Tez-tez deyirdi ki, yaxşı ki səni tanımışam. Bir ailə kimiydik. Elə vaxtlar olurdu ki, evə ərzaq ala bilmirdim, evimə ərzağı Çingiz alırdı. Çingiz elə insan idi.

Çingiz hərbi hissədə komandir və əsgər heyətinin də hörmətini qazanmışdı. Naxçıvan qarnizonunda Çingizlə mənim beş illik xidmətimiz bitdiyi üçün xidmət yerimizi dəyişməli olduq. Yeni müqaviləyə və Müdafiə nazirinin müvafiq əmrinə əsasən Çingiz Tovuz şəhərində yerləşən "N" saylı hərbi hissədə, mən isə Qazax şəhərindəki "N" saylı hərbi hissədə xidmətimizi davam etdirdik. Bu vaxtlarda Çingizin qardaşı Cavid də Şəmkir Korpusunun həmlə taborunda xidmət edirdi. Mən tez-tez Çingizgilə gedirdim. Çingizin ailəsi, valideynləri çox mehriban və xoşbəxt idilər. Çingizin qardaşı Cavid də xidmətinə çox bağlı idi. Üç ay sonra Çingiz korpus komandirinin əmri ilə xidmətini davam etmək üçün Cavidin qulluq etdiyi yerə göndərildi. Bir müddətdən sonra Cavid Tovuzda yerləşən "N" saylı hərbi hissəyə keçirildi. O arada mən də xidmətimi davam etdirmək üçün Gəncə şəhərinə göndərildim. Həmin vaxtlar Çingiz Şəmkir korpusunun Seyfəli poliqonunda həmlə taborunda xidmət edirdi. Xidmətimlə əlaqədar olaraq mən də Seyfəli poliqonuna, Çingizin yanına üç aylıq ezam olundum. Bu üç ay müddətində Çingizin evində qaldım. Bir gün söhbətimiz əsnasında Çingiz mənə dedi ki, qardaş, mən ölsəm də arxayınam ki, ailəmi əmanət edəcəyim sənin kimi adam var. Elə şeyləri danışmamağı xahiş etdim. "Mən şəhid olacam, - dedi, - məni öz çiyinlərində aparıb dəfn edərsən". Elə bil şəhid olacağı Çingizin ürəyinə dammışdı.

Həmin ərəfədə Çingizin ikinci oğlu Uğur dünyaya gəldi. Gəlib mənə "Müjdəmi ver, yenə ata oldum", - dedi. Mən də gülərək "nə istəsən verəcəm", - cavabını verdim. Təbrik etdim və çox sevindiyimi bildirdim. Çingizlə axırıncı görüşüm həmin gün oldu.

2019-cu ilin avqustun 21-i xidmətimlə əlaqədar olaraq Bakıya köçməli oldum. Buna baxmayaraq tez-tez əlaqə saxlayırdıq. Onda Çingizin qardaşı Cavid Goranboy rayonunun Ağcakənd kəndində "N" saylı hərbi hissədə xidmət edirdi. Və xidmətindən razı idi. Tez-tez ailəsinə baş çəkirdi. Onun arzusu düşmənlə üzbəüz olan ön xətdə xidmət etmək idi. Ona görə də öz istəyi ilə Naftalan şəhərində yerləşən "N" saylı hərbi hissəyə göndərildi. Telefon əlaqəsi saxlayırdıq. Tovuz hadisələrində Çingizlə Cavid bir müddət evləri ilə əlaqə saxlaya bilmədilər. Amma mən onlarla danışırdım.

2020-ci ilin sentyabr ayının 27-si torpaqlarımızı düşmən tapdağından azad etmək üçün Ali Baş Komandan əks-hücum əmri verdi. Ondan sonra Cavidlə əlaqə kəsildi.

Sentyabın 29-u səhər saat 9:00-10:00 radələrində Çingiz mənə zəng vurdu:

- Haralardasan, özündən muğayat ol. Caviddən mənə bir xəbər ver, mən ondan xəbər ala bilmirəm.

- Cavidgillə əlaqə kəsilib. Əlaqə saxlamaq mümkün deyil, - dedim.

- Mən bilirəm ki, Cavid olduğu yerdə qızğın döyüşlər gedir, o artıq şəhid olub.

- Ola bilməz, özünü qoru, ehtiyatlı ol.

- Mən şirəm, mənə heç nə olmaz, sən özünü qoru, - dedi.

O gündən Çingizlə də əlaqə kəsildi. Çingiz Murov dağı istiqamətində döyüşürdü. Oktyabrın 4-ü Cavidin şəhid xəbəri gəldi. Çingizə qardaşının şəhid olduğunu və onun dəfnində iştirak etməsini deyiblər, Çingiz də cavabında: "Mənim qardaşımı kəndim dəfn edəcək, mən getmirəm, - deyərək silahını götürüb döyüşə gedir.

Bir gün Çingizin anası mənə zəng etdi: "Seyran, Çingizdən xəbər var. Cəbrayıl rayonunun dairəsində Fərid adlı həkim Çingizin pul kisəsini tapıb. İçində nömrəsi, kartı, hərbi vəsiqəsi olub". Mən həkimin telefon nömrəsini alıb, Fərid həkimlə danışdım. Çətinliklə də olsa, görüşüb sənədləri Fərid həkimdən götürdüm. Həmin vaxtdan yalnız irəliyə getməyi düşünürdüm və geriyə dönüş olmadığını görürdüm. Çingizin qanını almaq məqsədi ilə ancaq irəli.

Çingizin valideynləri, demək olar ki, bütün xəstəxanaları, morqları gəzdilər. Amma Çingizi tapmaq mümkün olmadı. Mənim morqda işləyən bir tanışım vardı. Çingizin əlamətlərini söyləyib, ondan Çingizi soruşurdum. Bir nəticə olmadı...

2020-ci il 6 dekabrda həmin şəxsdən mənə zəng gəldi. "Biz sizə Çingizdən bir xəbər deyəcəyik. Amma möhkəm olun" - dedi. Mən ona yalvardım ki, Çingizin ölüm xəbərini mənə demə. O, "Çingiz artıq şəhiddi", - dedi. Mən dekabrın 18-nə kimi valideynlərinə Çingizin şəhid olduğunu demədim. Çünki o müddətə qədər Çingizi hospitalda DNT analizi edirdilər. Ailə üçün bu xəbər ikinci övlad acısı idi və mən bu xəbəri onlara demək istəmirdim. Dekabrın 18-də Çingizin cənazəsini ailəsinə təhvil verdilər və dəfn etdilər. Mən özümü hələ də bağışlaya bimirəm. Çingiz mənə vəsiyyət etmişdi ki, məni sən dəfn edərsən. Mən xidmətimlə əlaqədar olaraq onun dəfninə gedə bilmədim. Amma Çingiz və Cavidin valideynlərinə, ailələrinə və övladlarına həmişə əlimdən gələn köməkliyi edəcəm, çünki Çingiz onları mənə əmanət edib.

Allah bütün şəhidlərimizi rəhmət etsin!"

Bu, döyüşçü dostun yazısıdır.

Seyran içinin ağrısını, etirafını qataraq dostu haqqında yazır. Cümlələrdən hiss olunur ki, bu yazı göz yaşları ilə yazılıb. Göz yaşları ilə yazılan yazını oxumaq olmur.

Dostun itkisindən yazmaq çox çətindi. O da ağrıları ilə yaşadığın döyüşçü dostun ola...

(ardı var)

Rəfail TAĞIZADƏ